https://doi.org/10.36719/2706-6185/45/223-226

**Bahar Şirinova**
Qərbi Kaspi Universiteti
https://orcid.org/0009-0007-7523-4388
baharsirinova2@gmail.com

# TRACECA və Böyük İpək Yolu: Azərbaycan vasitəsilə Qafqaz və Avropa-Asiya əlaqələri

**Xülasə**

TRACECA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) tarixi "Böyük İpək Yolu"nun bərpasını və inkişafını hədəfləyən mühüm nəqliyyat və ticarət layihəsidir. Bu təşəbbüs Avropa ilə Asiya arasında ticarət və logistika əlaqələrinin gücləndirilməsində strateji rol oynayır. TRACECA layihəsi, region ölkələrinin nəqliyyat infrastrukturunun modernləşdirilməsi və tranzit potensialının artırılması baxımından əhəmiyyətli bir platformadır. Digər tərəfdən, Çin Xalq Respublikası tərəfindən irəli sürülən "Bir Kəmər, Bir Yol" təşəbbüsü isə daha geniş miqyasda qlobal ticarət marşrutlarının bərpasını nəzərdə tutur və bu kontekstdə TRACECA ilə müəyyən dərəcədə paralellik təşkil edir.

Azərbaycan, hər iki böyük təşəbbüs çərçivəsində mühüm tranzit ölkə kimi çıxış edir. Ölkənin geostrateji mövqeyi, Xəzər dənizi üzərindən keçən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşməsi ilə seçilir. TRACECA və "Böyük İpək Yolu"nun bərpası bir-birini tamamlayan layihələr kimi Qafqaz regionunda nəqliyyat infrastrukturunun inkişafına və beynəlxalq ticarət marşrutlarının şaxələndirilməsinə mühüm töhfələr verir. Bu proses, eyni zamanda, Azərbaycanın iqtisadi inkişafına, regional əməkdaşlığın gücləndirilməsinə və enerji resurslarının dünya bazarına çıxışının genişləndirilməsinə imkan yaradır. Beləliklə, TRACECA və "Böyük İpək Yolu" layihələrinin bərpası Azərbaycan üçün həm iqtisadi dividendlər, həm də strateji üstünlüklər təmin edən mühüm beynəlxalq təşəbbüslərdən biridir.

***Açar sözlər:*** *Böyük İpək Yolu, TRACECA, kəmər və yol, Bakı-Tbilisi-Qars, nəqliyyat dəhlizləri, tranzit potensialı, regional əməkdaşlıq*

**Bahar Shirinova**
Western Caspian University
https://orcid.org/0009-0007-7523-4388
baharsirinova2@gmail.com

# TRACECA and the Great Silk Road: Caucasus and Europe-Asia Connections Through Azerbaijan

**Abstract**

TRACECA (Europe-Caucasus-Asia Transport Corridor) is a significant transportation and trade project aimed at the restoration and development of the historic "Silk Road." This initiative plays a strategic role in strengthening trade and logistics links between Europe and Asia. The TRACECA project serves as an important platform for the modernization of transportation infrastructure and the enhancement of transit potential in the region's countries. On the other hand, the "Belt and Road" initiative proposed by the People's Republic of China envisions the restoration of global trade routes on a larger scale and, in this context, shares some parallels with TRACECA.

Azerbaijan serves as a key transit country within both major initiatives. The country's geopolitical location, positioned at the intersection of East-West and North-South transport corridors over the Caspian Sea, sets it apart. The restoration of TRACECA and the "Silk Road" are complementary projects that make significant contributions to the development of transportation infrastructure in the Caucasus region and the diversification of international trade routes. This process also creates opportunities for Azerbaijan's economic growth, strengthening regional cooperation, and expanding

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

access to global markets for energy resources. Therefore, the restoration of TRACECA and the "Silk Road" projects is one of the key international initiatives that provides Azerbaijan with both economic dividends and strategic advantages.

***Keywords:*** *Silk Road, TRACECA, Belt and Road, Baku-Tbilisi-Kars, transport corridors, transit potential, regional cooperation*

## Giriş

Azərbaycan əlverişli coğrafi mövqeyi ilə mühüm strateji əhəmiyyətə malikdir. Ölkənin bu mövqedə yerləşməsi qədim zamanlardan etibarən müxtəlif sivilizasiyalar, mədəniyyətlər və xalqlar arasında ticarət əlaqələrinin qurulmasına və nəqliyyat magistrallarının Azərbaycanın ərazisindən keçməsinə şərait yaratmışdır. Bu ticarət yolları Avropanı Şərqlə birləşdirərək, qlobal iqtisadi və mədəni inteqrasiyada mühüm rol oynamışdır. Tarixi Böyük İpək Yolu da Azərbaycan ərazisindən keçmiş və təkcə ticarət əlaqələrinin inkişafına deyil, həm də xalqlar arasında mədəni və sosial ünsiyyətin möhkəmlənməsinə səbəb olmuşdur.

Böyük İpək Yolu eramızdan əvvəl formalaşmış və uzun əsrlər boyu fəaliyyət göstərmişdir. Belə ki, eramızın 1271-ci ilində səyyah Marko Polo Çinə qədər uzanan 13 min kilometrlik karvan yolu boyunca səyahət etmişdir. Onun səyahəti zamanı bu yol artıq "Böyük İpək Yolu" kimi tanınırdı. İlk dövrlərdə bu ticarət magistralı vasitəsilə Şərqdən Qərbə ipək, çini qablar, kağız və digər mühüm ticarət malları daşınırdı. Böyük Coğrafi Kəşflər dövrünə qədər İpək Yolu əsas ticarət dəhlizi funksiyasını yerinə yetirmiş, lakin sonradan müvəqqəti olaraq öz əvvəlki əhəmiyyətini itirmişdir (7).

**Tədqiqat**

Böyük İpək Yolunun yenidən bərpası XX əsrin 90-cı illərindən etibarən aktual məsələyə çevrilmişdir. Bu çərçivədə TRACECA (Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi) proqramı mühüm əhəmiyyət kəsb edir. "Böyük İpək Yolu"nun bərpasına dair beynəlxalq konfrans 1998-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Bakıda keçirilmişdir. İpək Yolunun bərpası layihəsinin davamı olaraq TRACECA proqramı çərçivəsində Bakı–Tbilisi–Qars dəmir yolu xətti inşa edilmiş, eyni zamanda Çin tərəfindən irəli sürülən "Bir Kəmər, Bir Yol" təşəbbüsü həyata keçirilməyə başlanmışdır. Bu layihələr tarixi İpək Yolunun müasir dövrdə yenidən canlanmasına və Avrasiya regionunda iqtisadi əməkdaşlığın güclənməsinə töhfə verməkdədir.

TRASECA Proqramı və Böyük İpək Yolunun Bərpası

TRASECA proqramı 1993-cü ilin may ayında Brüsseldə nəqliyyat və ticarət nazirlərinin iştirakı ilə keçirilən konfransda səkkiz dövlətin iştirakı ilə təsis edilmişdir. Bu proqram Avropadan Qərb-Şərq istiqamətində Qara dəniz, Qafqaz və Xəzər dənizi vasitəsilə Mərkəzi Asiyaya qədər uzanan nəqliyyat dəhlizinin inkişafına yönəlmiş və Avropa İttifaqının (Aİ) region ölkələri üçün nəzərdə tutduğu nəqliyyat strategiyasının tərkib hissəsi olmuşdur (2).

Avropa Komissiyasının təklifi ilə qəbul edilən “Brüssel Bəyanaməsi” sənədi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin əhəmiyyətini vurğulamış, onun inkişaf etdirilməsi istiqamətində əməkdaşlığın əsas formalarını və mexanizmlərini müəyyənləşdirmişdir. TRASECA layihəsi qədim İpək Yolunun bərpasını təşviq etməklə 40-dan çox dövlət arasında siyasi, iqtisadi, ticarət, nəqliyyat, rabitə və mədəni əlaqələrin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir (2).

Ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan Böyük İpək Yolunun bərpası təşəbbüsçülərindən biri olmuş və bu prosesdə fəal iştirak etmişdir. Məhz bu səbəbdən, tarixi İpək Yolunun bərpasına dair ilk beynəlxalq konfrans 8-10 sentyabr 1998-ci ildə Bakıda, Gülüstan Sarayında təşkil olunmuşdur. Bu konfransda 32 dövlət və 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak etmiş, Böyük İpək Yolunun bərpasına dair müzakirələr aparılmış və bir sıra vacib sənədlər imzalanmışdır. Konfrans çərçivəsində Azərbaycan, Gürcüstan, Qazaxıstan, Bolqarıstan, Moldova, Rumıniya, Tacikistan, Türkiyə, Özbəkistan, Qırğızıstan və Ukrayna dövlət başçıları və nümayəndə heyətləri tərəfindən “Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafına dair Beynəlxalq Nəqliyyat Haqqında Əsas Çoxtərəfli Saziş” imzalanmışdır (5).

Avropa Birliyinin TASİS-TRASECA proqramı çərçivəsində həyata keçirilən tədbirlər nəqliyyat dəhlizində yerləşən bütün ölkələrin, o cümlədən Qafqaz regionunun inkişafına, onların iqtisadi potensialından daha səmərəli istifadə olunmasına və çoxtərəfli iqtisadi əməkdaşlığın genişlənməsinə

şərait yaratmışdır. Böyük İpək Yolunun bərpası həmçinin Qafqaz ölkələri ilə Avropa arasında iqtisadi inteqrasiyanı sürətləndirərək Şərq-Qərb nəqliyyat dəhlizinin və TRASECA proqramının inkişafına mühüm töhfə vermişdir (5).

TRASECA-nın Strateji Əhəmiyyəti və Alternativ Marşrutlar

Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizi olan TRASECA Qərblə Şərq arasında alternativ nəqliyyat marşrutu kimi çıxış edir. Bu layihə transokean daşımalarına və Transsibir magistralına alternativ olaraq inkişaf etdirilmişdir. Xüsusilə də, Transxəzər beynəlxalq nəqliyyat marşrutu ildə 15 milyon tondan artıq yükdaşımaları potensialına malikdir (6)

Böyük İpək Yolu layihəsinin həyata keçirilməsi Avropa Birliyinin və Birləşmiş Millətlər Təşkilatının Qara dəniz və Xəzər dənizi regionuna çıxışını təmin etmiş, eyni zamanda regionda geosiyasi və geoiqtisadi mühitin dəyişməsinə səbəb olmuşdur. TRASECA proqramı XXI əsrin ən mühüm layihələrindən biri hesab olunur və 21 fevral 2001-ci ildə TRASECA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınmışdır(4). Açılış mərasimində Azərbaycan Prezidenti Heydər Əliyev, Avropa İttifaqına sədrlik edən İsveçin xarici işlər naziri Anna Lind, Avropa İttifaqı Şurasının Baş Katibi, Ümumi Xarici və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndə Xavyer Solana və Avropa Komissiyasının xarici əlaqələr üzrə komissarı Kristofer Patten iştirak etmişlər (İ. Hüseynova, s. 512).

TRASECA layihəsi çərçivəsində Azərbaycan 25 texniki və 11 investisiya layihəsinin həyata keçirilməsinə dəstək vermişdir ki, bu layihələrin 26-sında Azərbaycanın payı ümumilikdə 100 milyon avrodan artıq olmuşdu (8). Bu proqram "Yeni İpək Yolu" adı ilə də ifadə olunur və Mərkəzi Asiya ölkələrini Qafqaz vasitəsilə Avropaya birləşdirən beynəlxalq nəqliyyat dəhlizi kimi Avrasiya regionunda iqtisadi-ticarət əlaqələrinin inkişafına töhfə verir.

TRASECA nəqliyyat dəhlizi Avropa və Asiya arasında ticarət əlaqələrinin genişlənməsi, yükdaşımaların həcminin artması və bölgədə yeni nəqliyyat-kommunikasiya şəbəkələrinin qurulması baxımından böyük əhəmiyyət daşıyır. Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD), Dünya Bankı (WB), İslam İnkişaf Bankı (IDB) və Asiya İnkişaf Bankı (ADB) bu layihənin maliyyələşdirilməsinə qoşulan əsas beynəlxalq maliyyə qurumlarıdır.

1999-cu ildə ABŞ Senatında qəbul edilən "İpək Yolu üzrə Strateji Qanun" bu bölgənin iqtisadi və siyasi müstəqilliyinin gücləndirilməsini hədəfləmişdir. TRASECA layihəsi Avropa, Qara dəniz, Qafqaz, Xəzər dənizi və Asiya regionları arasında ticarət və nəqliyyat əlaqələrinin inkişafı üçün möhkəm platforma kimi çıxış edir (3).

Bakı-Tbilisi-Qars Dəmir Yolu: Polad Magistral Üzərində İpək Yolu

TRASECA proqramı çərçivəsində həyata keçirilən ən iri layihələrdən biri Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttidir. Bu layihə regionun nəqliyyat infrastrukturunun inkişafında mühüm rol oynayır. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ümumi uzunluğu 840 km təşkil edir ki, bunun 503 km-i Azərbaycan, 259 km-i Gürcüstan və 78 km-i isə Türkiyə ərazisindən keçir. 30 oktyabr 2017-ci ildə istifadəyə verilən bu dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin inteqrasiyasını təmin edərək, qədim İpək Yolunun müasir nəqliyyat infrastrukturunda bərpasına şərait yaratmışdır.

Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin (Türkmənistan, Özbəkistan, Qırğızıstan, Qazaxıstan və Tacikistan) Avropa və dünya bazarlarına çıxışını asanlaşdırmış, bu ölkələrin beynəlxalq ticarət əlaqələrinin inkişafına və iqtisadi inteqrasiyasına töhfə vermişdir (6).

Azərbaycanın bu layihələrdə iştirakı regional iqtisadi proseslərdə ölkənin rolunu gücləndirmiş və onun beynəlxalq əməkdaşlıqda əsas aktorlardan biri kimi mövqeyini möhkəmləndirmişdir.

## Nəticə

TRACECA və Böyük İpək Yolunun bərpası Azərbaycan üçün həm iqtisadi, həm də geostrateji baxımdan mühüm əhəmiyyət daşıyır. Bu layihələr Azərbaycanın tranzit potensialını artırmaqla, ölkəni Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin əsas iştirakçılarından birinə çevirir. Bakı-Tbilisi-Qars dəmir yolu kimi infrastruktur layihələri regionun nəqliyyat şəbəkəsini gücləndirərək, Avropa və Asiya arasında ticarət əlaqələrinin genişlənməsinə şərait yaradır.

Eyni zamanda, TRASECA proqramı və "Bir Kəmər, Bir Yol" təşəbbüsü arasında müəyyən rəqabət və əməkdaşlıq elementləri mövcud olsa da, Azərbaycan hər iki layihədə strateji mövqeyini qoruyub saxlayır. Bu proses Azərbaycanın regional və qlobal iqtisadiyyata inteqrasiyasını sürətləndirir, ticarət marşrutlarını şaxələndirir və beynəlxalq əlaqələrini gücləndirir.

Beləliklə, TRACECA və Böyük İpək Yolunun müasir dövrdə yenidən canlandırılması, Azərbaycanın nəqliyyat-logistika sektorunun inkişafını stimullaşdırmaqla yanaşı, ölkənin iqtisadi dayanıqlığını və beynəlxalq arenadakı rolunu daha da möhkəmləndirir.

## Ədəbiyyat

1. Hüseynova, İ. (2008). *“Heydər Əliyev və Qafqazda sülh prosesi”*. Bakı: Çaşıoğlu, 672.
2. *Cümhuriyət qəzeti*. (2023, iyul 14-20). № 26, 7.
3. *Amerikanın səsi*. https://www.amerikaninses
4. https://president.az
5. *Azərbaycan Milli Kitabxanası*. http://www.anl.az
6. https://eres.preslib.az
7. Əmrahov, M. (2011). *Böyük İpək Yolu*. Bakı, 84.
8. *Dirçəliş-XXI əsr*. (2009). № 135-136, 168-174.

Daxil oldu: 10.11.2024
Qəbul edildi: 23.02.2025